# AZƏRBAYCAN RESPUBLİKASI
# ENERGETİKA NAZİRLİYİNİN KOLLEGIYASI

---

**Q Ə R A R**

**№** 03

**Bakı şəhəri** "15" dekabr **2017-ci il**

**"Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.10.6-cı yarımbəndini rəhbər tutaraq, "P.O.Şahbazovun Azərbaycan Respublikasının energetika naziri təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 oktyabr tarixli 3290 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli Qərarında (Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyasının 2015-ci il 15 iyul tarixli 1 nömrəli, 2016-cı il 27 sentyabr tarixli 3 nömrəli, 2016-cı il 7 dekabr tarixli 4 nömrəli qərarları ilə edilmiş dəyişikliklərlə) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "İxrac nəzarətinə düşən və Energetika Nazirliyinin səlahiyyətinə aid olan malların (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı və tranziti üçün xüsusi icazənin verilməsi məqsədi ilə müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"ə "Əlavə 1. İxrac nəzarətinə düşən və Energetika Nazirliyinin səlahiyyətinə aid olan malların (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı və tranziti üçün xüsusi icazənin verilməsi üçün ərizə forması (fiziki şəxslər

üçün)"nda və "Əlavə 1. İxrac nəzarətinə düşən və Energetika Nazirliyinin səlahiyyətinə aid olan malların (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı və tranziti üçün xüsusi icazənin verilməsi üçün ərizə forması (hüquqi şəxslər üçün)"nda "N.Əliyev" sözü "P.Şahbazov" sözü ilə əvəz edilsin;

1.2. Həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Qiymətli daşların hasilatı, qızılın və digər qiymətli metalların, neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı, neft və neft məhsulları tullantılarının emalı vasitələrinin dövriyyəsinə dair xüsusi icazənin verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"ə "Əlavə 1. Qiymətli daşların hasilatı, qızılın və digər qiymətli metalların, neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı, neft və neft məhsulları tullantılarının emalı vasitələrinin dövriyyəsinə dair xüsusi icazənin verilməsi üçün ərizə forması (fiziki şəxslər üçün)"nda və "Əlavə 1. Qiymətli daşların hasilatı, qızılın və digər qiymətli metalların, neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı, neft və neft məhsulları tullantılarının emalı vasitələrinin dövriyyəsinə dair xüsusi icazənin verilməsi üçün ərizə forması (hüquqi şəxslər üçün)"nda "N.Əliyev" sözü "P.Şahbazov" sözü ilə əvəz edilsin.

2. Hüquqi münasibətlər şöbəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün üç gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunması təmin edilsin.

3. Elektron idarəetmə və informasiya şöbəsinə tapşırılsın ki, bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində dərc edildikdən sonra bu Qərarla edilmiş dəyişikliklər nəzərə alınmaqla inzibati reqlamentlərin Azərbaycan Respublikası Energetika Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Bu Qərarın icrasına nəzarət nazir müavini Gülməmməd Cavadova həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikasının**
**energetika naziri** **Pərviz Şahbazov**